# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 12 (1717) 30 dekabr 2020 - ci il Qiymәti 50 qәpik


# Rusiyanın məşhur "Vedomosti" nəşri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi "İlin siyasətçisi" seçib

**Rusiyanın məşhur "Vedomosti" nəşri altı nominasiya üzrə ilin personası ilə bağlı illik xüsusi layihəsinin nəticələrini dərc edib.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nəşrin oxucuları arasındakı səsvermədə "İlin siyasətçisi" seçilib.

Nəşr yazır: "İlham Əliyevi haqlı olaraq ordusu 2020-ci ildə inamlı hərbi qələbə qazanan, region miqyasına görə isə əsl triumf əldə edən yeganə lider adlandırmaq olar".

Qeyd edək ki, "İlin siyasətçiləri" nominasiyasının namizədləri siyahısında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko da olub.

ABŞ-ın yeni seçilmiş Prezidenti Co Bayden isə redaksiya seçimi əsasında "İlin siyasətçisi" elan edilib.

## BU SAYIMIZDA




## ATU-nun yaradılmasının 90 illik yubileyinə həsr olunmuş elmi konfrans 2

## Tibb tələbələri və gənc həkimlərin beynəlxalq veb konfransı keçirilib 3



*Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin bütün əməkdaşlarını, professor-müəllim heyətini və tələbələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir!*

## Ölkə üzrə 1500-ə yaxın rezident məzun olub 3

# ATU-nun yaradılmasının 90 illik yubileyinə həsr olunmuş elmi konfrans

**Dekabrın 19-da Azərbaycan Tibb Universitetinin yaradılmasının 90 illik yubileyinə həsr olunmuş elmi konfrans işinə başlayıb. Toplantıda Avropa, Amerika, Türkiyə, Rusiyadan tutmuş Çinə qədər dünyanın 40-dan çox ölkəsindən universitet rəhbərləri, alimlər, tibb elminin nümayəndələri və ziyalılar iştirak ediblər. Konfrans çərçivəsində keçirilən 18 elmi simpoziumda isə 200-ə yaxın alim çıxış edib.**



## Yubileyə həsr olunmuş tədbirə 40-dan çox ölkədən 200-ə yaxın iştirakçı qoşulub









Təntənəli açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli 90 yaşını qeyd edən ali məktəbin yubiley hazırlıqları, tarixi və müasir dövrdə fəlaiyyəti haqqında iştirakçılara ətraflı məlumat verib.

Rektor xatırladıb ki, bu il mayın 14-də ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan Tibb Universitetinin yaradılmasının 90 illiyinin dövlət səviyyəsində keçirilməsi haqqında Sərəncam imzalayıb. Bundan dərhal sonra Səhiyyə və Təhsil Nazirliklərinin dəstəyilə yubileyə hazırlıq üzrə geniş miqyaslı işlərə başlanılıb. Yubiley münasibətilə "Azərbaycan Tibb Jurnalı"nın və "Sağlamlıq" jurnalının bir nömrəsi tam şəkildə ATU-nun 90 illiyinə həsr edilib. Azərbaycan, rus və ingilis dillərində nəfis tərtibatla ATU-ya həsr edilmiş broşur çap olunub. Universitetin 90 illiyinə aid kitab, yubiley medalı və nəzərdə tutulan digər atributlar hazırlanıb.

Professor G.Gəraybəyli qeyd edib ki, COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, ATU-nun 90 illiyinin bu ilin payız semestrinin əvvəllərində keçirilməsi nəzərdə tutulurdu: "Lakin sentyabrın 27-də ölkəmizin tarixində bir möcüzə baş verdi. Bu möcüzənin yaradıcısı və ilhamverici qüvvəsi Ali Baş Komandan cənab Prezident İlham Əliyev oldu. Ali Baş Komandanın yaratdığı əzəmətli Azərbaycan Silahlı Qüvvələri erməni terroristlərinin təxribatının qarşısını almaq məqsədilə əks-hücum əməliyyatına başladı. Cəmi 44 gün ərzində Silahlı Qüvvələrimiz torpaqlarımızı erməni işğalından azad etdi. BMT-nin Təhlükəsizlik Şurasının 30 ildə edə bilmədiyini və ya etmək istəmədiyini Ali Baş Komandan və rəşadətli Silahlı Qüvvələr qısa müddətdə həyata keçirdi".

### İki cəbhədə vuruşan ATU yetirmələri

ATU-nun rektoru bildirib ki, 44 gün ərzində universitetin yetirmələri olan həkimlər gecə-gündüz yaralı əsgərlərimizin qulluğunda dayanıblar, erməni terrorçularının qurbanlarına çevrilmiş dinc əhalini müalicə ediblər: "Onlar bunun öhdəsindən şərəflə gəldilər. Bütün həkimlərimiz, tibb işçilərimiz əsgərlərimizlə birlikdə bayrağımızı yüksəklərə qaldırdılar, Azərbaycan Tibb Universitetinin başını uca etdilər. ATU-nun məzunları və müəllimləri həm I və II Qarabağ müharibəsində, həm də pandemiyaya qarşı müharibədə qəhrəmanlıq nümunəsi göstərdilər".

Rektor qeyd edib ki, bu il ATU-nun məzunları və əməkdaşları iki düşmənə– erməni terrorçuları və COVİD-19 pandemiyasına qarşı savaşıblar. ATU-nun klinikalarında həkimlər, həm də universitet məzunları ölkənin müxtəlif xəstəxanalarında, hospitallarda gecə-gündüz peşə borclarını fədakarcasına yerinə yetirərək xalqımızın infeksiyaya yoluxan nümayəndələrinin böyük əksəriyyətini ölümün pəncəsindən xilas edirlər.

### ATU-ya dövlət qayğısı

Rektor, professor Gəray Gəraybəyli ATU-ya dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan da söz açıb. Qeyd edib ki, ATU-nun maddi-texniki bazasının qurulması, yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasının möhkəm bünövrəsinin yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. ATU-nun 11 mərtəbəli 5 nömrəli tədris korpusunun, 400 yerlik unikal Akt zalının, Tədris Stomatoloji Klinikasının, Hərbi-tibb fakültəsinin və s. yaradılması dahi Heydər Əliyevin qayğısı sayəsində baş tutub: "Son 17 ildə isə bu xeyirxah missiya cənab Prezident İlham Əliyev, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən davam etdirilir. Ulu Öndər ölkəmizə rəhbərlik edərkən dörd dəfə ATU-da olub, ona əsil atalıq qayğısı göstərib. Ümummilli liderin davamçıları olan zati-aliləri cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qısa müddətdə 3 dəfə Azərbaycan Tibb Universitetində olublar. Məhz onların qayğısı ilə ATU-nun Tədris Terapevtik, Tədris Cərrahiyyə və Onkoloji Klinikaları qısa müddətdə tikilib istifadəyə verilib".

ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu diqqətə görə, həmçinin möhtəşəm Qələbə münasibətilə konfrans iştirakçıları adından dövlət başçısına dərin minnətdarlığını, təşəkkürlərini çatdırıb. O cümlədən, ölkəmizin bütün səhiyyə və təhsil işçilərini, ATU-nun bütün məzunlarını, tələbə-gənclərini, rezident və magistrlərini hamımızın "Alma materi" olan bu qocaman tibb təhsili ocağının yaranmasının 90 illiyi münasibətilə ürəkdən təbrik edib, hamıya yeni-yeni nailiyyətlər diləyib.

Rektorun çıxışından sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda Azərbaycanla yanaşı, dünya miqyaslı tanınmış alim və ziyalılar, xarici ölkələrin ali məktəblərinin rektorları, rəsmi şəxslər çıxış edərək ATU-nu yubiley münasibətilə təbrik ediblər.

### Dünyanın hər yerindən ATU-nu təbrik ediblər

Təbrik nitqi ilə çıxış edənlər arasında Azərbaycan Respublikasının Səhiyyə nazirinin müavini Elsevər Ağayev, Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar, Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov, Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin sədri, Azərbaycan Tibb Universitetinin Onkologiya kafedrasının müdiri, akademik Əhliman Əmiraslanov, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, professor Əziz Əliyev, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Qasımov, İstanbul Üniversitesi-Cərrahpaşa rektoru, professor Nuri Aydın, Qazi Universitetinin rektoru, professor Musa Yıldız, Dünya Pediatriya Assosiasiyasının sədri, Türkiyə Milli Pediatriya Dərnəyinin icraçı direktoru, professor Ənvər Həsənoğlu, Türkiyə Endoskopik-Laparoskopik Cərrahiyyə Dərnəyinin sədri, Fransa Cərrahlar Cəmiyyətinin üzvü, professor Cavit Avcı, Rusiya Elmlər Akademiyasının üzvü, akademik Anatoli Martinov İvanoviç, Təbriz Tibb Elmləri Universitetinin rektoru, professor Mohammad Hossein Somi, Ərdəbil Tibb Elmləri Universitetinin rektoru, professor Ghodrat Axavan-Akbari, Riphah Beynəlxalq Universitetinin rəhbəri Mr. Hassan Muhammad Khan, Dağıstan Dövlət Tibb Universitetinin rektoru, professor Süleyman Mamayev, Həştərxan Dövlət Tibb Universitetinin rektoru, professor Olqa Başkina, Tbilisi Dövlət Tibb Universitetinin rektoru, professor Zurab Vadaçkoria, BRIMEA (Belt and Road International Medical Education Alliance) Çin Tibb Universitetinin rəhbəri Wen Deliang, Qansu Universitetinin prezidenti Li Jintian var idi.

Təbrik nitqi ilə çıxış edən Azərbaycan alimləri ATU ilə bağlı xatirələrini səsləndirdilər. Xarici qonaqlar da çıxışlarında ATU-nun Azərbaycanda tibb elminin inkişafında rolu, tibb üzrə ixtisaslı kadrların yetişdirilməsi işinə verdiyi töhfə, tibb təhsili üzrə beynəlxalq münasibətlərin gücləndirilməsi üçün sərf olunan böyük zəhməti haqqında fikirlərini açıqladılar.

### Professor Aziz Sancarın təbrik məktubu oxunub

Konfransın açılışında həm də akademik, biokimyaçı, molekulyar bioloq və elm adamı, ABŞ Milli Elmlər Akademiyasının, Türkiyə Elmlər Akademiyasının üzvü, 2015-ci il Kimya üzrə Nobel mükafatçısı professor Aziz Sancar da ATU-nun yubileyi münasibətilə konfrans iştirakçılarına təbrik məktubu ünvanlayıb. Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov məktubu səsləndirib.

Sonra ATU-nun yaradılmasının 90 illiyinə həsr edilmiş konfrans iştirakçıları adından Ali Baş Komandan, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Zəfər Bayramı münasibətilə təbrik məktubunun hazırlanması qərara alınıb. Məktubun mətni ATU-nun elmi katibi, professor Nazim Pənahov tərəfindən səsləndiridikdən sonra yekdilliklə təsdiqlənib.

### Müxtəlif mövzularda elmi simpoziumlar keçirilib

Təbrik nitqindən sonra Azərbaycan Tibb Universitetinin yaradılmasının 90 illik yubileyinə həsr olunmuş elmi konfrans sektorlar üzrə müxtəlif mövzulara həsr edilmiş simpoziumlarla işini davam etdirib. "COVID-19 – XXI əsrin pandemiyası" adlı birinci bölmədə ATU-nun professor-müəllim heyəti tərəfindən virusun genetikası, Azərbaycanda pandemiya dövründə böyrək xəstəliklərinin idarə olunması, pandemiya zamanı psixi pozuntular, virusun qadın və uşaqlara təsiri kimi mövzularda məruzələr səsləndirilib. Gün ərzində "Serebrovaskular xəstəlikləri və insult menecmentin müasir aspektləri", "Piylənmə və bariatrik cərrahiyyə", "Uşağın həyatının ilk 1000 günü" kimi maraqlı bölmələrdə də çıxışlar olub.

Qeyd edək ki, konfransın ikinci günündə "Uşaqlarda anadangəlmə inkişaf qüsurlarının diaqnostika və cərrahi mualicəsi", "Qastroesofaqal reflyuks – fənlər arası problem", "Şüa diaqnostikasının müasir aspektləri", "Perinatal dövrdən böyüklərə qədər uro-nefrologiyanın diaqnostik və müalicə strategiyası", "Cərrahiyyədə innovasiyalar və perspektivlər", "Pediatriyada miflər və reallıq", "Maddədən dərmana gedən yol" və digər maraqlı mövzularda elmi araşdırmaların nəticələri təqdim olunub.

**ATU-nun mətbuat xidməti**

# Ölkə üzrə 1500-ə yaxın rezident məzun olub

Azərbaycanda yüksək ixtisaslı tibbi kadr hazırlığında müstəsna əhəmiyyət daşıyan rezidentura təhsilinə 2011-ci ildən start verilib. 2013-cü ildən başlayaraq Azərbaycan Tibb Universiteti rezidentura üzrə ilk məzunlarını buraxmağa başlayıb. İndiyədək respublika üzrə 1454 rezident məzun olub. Bu barədə Rezidentlərin VIII Elmi-Təcrübi Konfransında (ATUREK-8) məlumat verilib. Konfransın əsas məqsədi tibbin müxtəlif sahələrini əhatə edən müasir biliklərin paylaşılması və müzakirə edilməsindən ibarətdir.







## ATUREK-8 konfransına 120-dən çox elmi iş təqdim olunub

Azərbaycan Tibb Universitetinin 90 illik yubileyinə həsr olunmuş onlayn ATUREK toplantısında açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli qeyd edib ki, indiyədək məzun olan 550-dən çox rezident məhz Azərbaycan Tibb Universitetini 40 ixtisas üzrə bitiriblər: "Məzun rezidentlərimizin əksəriyyəti respublikamızın müxtəlif bölgələrində müasir diaqnostika mərkəzlərində və xəstəxanalarda həkim kimi çalışır, bir qismi isə kafedralarımızda elmi-tədqiqat işləri və pedaqoji fəaliyyətlə məşğul olurlar. ATU-da təhsil alan rezidentlər arasında Rusiya, İran, Türkiyə, Qazaxıstan, İordaniya, Gürcüstan, Əfqanıstan və digər xarici ölkə vətəndaşları da var. Bununla yanaşı, hər il təxminən 70-80 nəfər rezidentimiz xarici ölkələrdə, o cümlədən, Türkiyə, Almaniya, İsveç, Fransa, Amerika Birləşmiş Ştatları, İran və digər ölkələrin klinikalarında 4-10 ay müddətində rotasiyalarda olur, müxtəlif konfrans və seminarlarda iştirak edirlər. Artıq bütün ixtisaslar üzrə bizim məzunlarımız var və onlar ölkəmizin müxtəlif klinikalarında və bəziləri kafedralarda assistent və doktorant kimi uğurla fəaliyyət göstərirlər".

Professor Gəray Gəraybəyli ATUREK iştirakçılarını Azərbaycan ordusunun qazandığı möhtəşəm qələbə münasibətilə təbrik etdikdən sonra indi diqqəti digər savaşa – koronavirusla mübarizəyə yönəltməyin vacib olduğunu da bildirib. Rektor qeyd edib ki, il boyunca Azərbaycan Tibb Universitetinin klinikaları və həkimləri pandemiya ilə mübarizənin ön sırasında olaraq, bu aylar ərzində yüzlərlə insanın həyatını xilas ediblər, minlərlə insanı sağlamlığına qovuşdurublar. İndi də bu layiqli və şərəfli savaşı davam etdirirlər. Professor G.Gəraybəyli ölkəmizdə fəaliyyət göstərən bütün bazalardan olan rezidentləri ATUREK-8-in işində fəal iştirak etməyə çağıraraq, onlara və rəhbərlərinə uğurlar arzulayıb.

Daha sonra çıxış edən ATU-nun rezidentura şöbəsinin müdiri, professor Nailə Sultanova qeyd edib ki, gənc ixtisasçı həkimlərin həm elmi, həm də təcrübi cəhətdən tam formalaşmaları üçün elmi praktik konfransların keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, ATUREK-8 də xüsusi önəm daşıyır. Professor N.Sultanova Tibb Universitetinin klinikalarında rezidentlərin uğurlu təhsili və praktiki fəaliyyəti, yaradılan hərtərəfli şərait haqqında geniş məlumat verib. Həmçinin, COVİD-19-la amansız savaşda ATU rezidentlərinin də aktiv iştirakı, peşəkar həkimlərlə yanaşı onların da xəstəliklə mübarizə aparmasından, xəstələrə yüksək səviyyədə qulluq etdiklərindən danışıb. N.Sultanova ATU-nun professor-müəllim heyətinin,



tələbələr, rezidentlər və magistrlərinin indiki mürəkkəb və çətin bir dövrdə üzləşdiyimiz hər bir sınaqdan uğurla çıxacağından əminliyini bildirib.

Sonra ATUREK-8 konfransında təqdim olunan elmi işlər təqdim olunur. Qeyd edək ki, bu il konfransa 28 ixtisas üzrə 128 elmi iş təqdim edilib. Həmçinin, rezidentlərlə yanaşı, ATU-da təhsil alan magistrlər tərəfindən də 30 elmi iş təqdim olunub.

Konfransda o cümlədən "COVİD-19-la mübarizədə rezidentlərin rolu", "COVİD-19-un differensial diaqnostikası", "COVİD-19-a yoluxmuş xəstələrin ağırlıq dərəcələrinin qiymətləndirilməsi" kimi aktual mövzular ətrafında ATU-nun aparıcı əməkdaşlarının müzakirələri olub. Konfransda təbabətin aktual problemlərinə dair elmi-tədqiqat işləri səsli şəkildə dinlənilib.

# Tibb tələbələri və gənc həkimlərin beynəlxalq veb konfransı keçirilib

**◆ Azərbaycan Tibb Universitetinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə universitetin 90 illik yubileyinə həsr olunmuş onlayn konfrans keçirilib. Tibb tələbələrinin və gənc alimlərin beynəlxalq veb konfransında Azərbaycanın tanınmış ictimai və elm xadimləri ilə yanaşı, xarici ölkələrin tibb nümayəndələri də iştirak ediblər.**



Tədbiri ATU TEC-in elmi rəhbəri, professor, əməkdar elm xadimi Amaliya Əyyubova giriş sözü ilə açıb. Bundan sonra ATU-nun rektoru, professor Gəray Gəraybəyli təbriklərini 44 gün davam edən Vətən Müharibəsində qazanılan möhtəşəm qələbə münasibətilə konfrans iştirakçılarını təbrik edib. "30 ilə yaxındır işğal altında olan torpaqlarımızın azad edilməsi ilə Azərbaycan tarixində yeni mərhələyə qədəm qoyduq" deyən rektor bu zəfəri xalqımıza yaşadan Azərbaycan ordusuna, Ali Baş Komandana təşəkkür edib. Həmçinin, Vətən Müharibəsində şəhid olanlara Allahdan rəhmət, yaralananlara isə şəfa diləyib.

Professor Gəray Gəraybəyli bu il 90 yaşını qeyd edən Azərbaycan Tibb Universitetinin ölkənin qocaman ali məktəblərindən biri olduğunu xatırladıb: "Azərbaycan Tibb Universiteti ölkəmizin ən böyük təhsil və elm mərkəzlərindən biri kimi tibb elminin inkişafına öz töhfəsini verir. Universitetin əsas vəzifəsi Azərbaycan üçün istedadlı və ixtisaslaşmış tibb kadrları yetişdirməkdir ki, bu baxımdan Tələbə Elmi Cəmiyyətinin də üzərinə böyük məsuliyyət düşür. İndiyədək TEC-in təşkilatçılığı və təşəbbüsü ilə hər il




beynəlxalq konfranslar, müxəlif bilik yarışları, müsabiqələr təşkil olunub". Rektor, professor Gəray Gəraybəyli TEC-in təşkil etdiyi növbəti konfransın işinə uğurlar arzulayıb.

Konfransın qonaqları - Naxçıvan Dövlət Universitetinin rektoru, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev, Türkiyə Yeditepe Universitesinin Mama-ginekologiya kafedrasının müdiri, professor Erkut Attar da ATU-nun 90 illiyi münasibətilə konfrans iştirakçılarını təbrik ediblər. Azərbaycanın xalq artisti Mənsum İbrahimov isə təbrik nitqindən sonra gələcəyin həkimləri üçün canlı olaraq "Qarabağ" mahnısını ifa edib.

Tibb tələbələrinin və gənc alimlərin beynəlxalq veb konfransına ATU-nu bitirmiş və hazırda xarici ölkələrin nüfuzlu klinikalarında çalışan həkimlər də qoşulublar. Vaxtilə TEC-in üzvü olan və hazırda Torontoda işləyən Leyla Bağırzadə, Türkiyədə neyrocərrah kimi işləyən Orxan Məmmədxanov universitetin yubileyi münasibətilə təbriklərini çatdırıblar.

ATU TEC-in sədri, tibb elmləri doktoru Müsfiq Həsənov isə cəmiyyətin yaranması, tarixi və fəaliyyəti haqqında konfrans iştirakçılarına ətraflı məlumat verib. M.Həsənov TEC tərəfindən təşkil olunan tədbirlər, tələbələrin inkişafına yönəlik layihələr, onlar üçün yaradılan imkanlar barədə danışıb.

Sonra veb konfrans öz işini TEC-in üzvləri Qəmər Məmmədbəyli, Fidan Bəylərova və Fidan Həsənlinin moderatorluğu ilə davam etdirib. Tədbirdə müxtəlif mövzulara aid 14 məruzə dinlənilib. Almaniya, Türkiyə, Rusiyanın fərqli ali məktəbləri - Tümen Tibb Akademiyası, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetindən, Özbəkistan, Tacikistan və Qazaxıstandan olan tələbə və gənc həkimlər maraqlı məruzələrlə çıxış ediblər. Sual-cavab sessiyasından sonra isə iştirakçılara ATU TEC-in gələcək planları haqqında məlumat verilib.

# ATU "Magna Charta Universitatum" Xartiyasına üzv oldu

**◆ Azərbaycan Tibb Universiteti Avropanın və dünyanın 900-dən artıq aparıcı ali məktəbini birləşdirən şəbəkəyə qoşulub. ATU "Magna Charta Universitatum" - Universitetlərin Böyük Xartiyasına üzv olub. Üzvlük barədə təklif bu yaxınlarda Azərbaycan Tibb Universitetinə daxil olub.**



Dünya Universitetlərinin Böyük Xartiyası – (Magna Charta Universitatum) 1988-ci ilin sentyabrında Boloniya Universitetinin yaranmasının 90 illik yubileyinə həsr olunmuş tədbirdə imzalanıb. Bu sənəd Avropa Universitetləri Assosiasiyası və Boloniya Universiteti tərəfindən hazırlanıb.

Xartiya hazırda 88 ölkədən 904 universiteti özündə birləşdirir. Xartiyanın əsas məqsədi üzv universitetlər arasında təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın qurulması və inkişaf etdirilməsidir. Sənəd həmçinin, tələbələrin, yüksək ixtisaslı kadrların, elmi işçilərin və araşdırmaçıların ölkələr arasında sərbəst mübadiləsi işinin gücləndirilməsini nəzərdə tutur.

#ATU #AzərbaycanTibbUniversiteti #Beynəlxalqəlaqələr #MagnaCharta #InternationalRelations #AzerbaijanMedicalUniversity

**ATU-nun mətbuat xidməti**

# Azərbaycan Tibb Universiteti rəqəmlərin dili ilə

**ADR parlamenti** 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis edilməsi haqda qərar qəbul etmişdir. Universitetin ən böyük fakültələrindən biri tibb fakültəsi olmuşdur.

* * *

**1920-ci ildə** Azərbaycan Dövlət Universitetinin tibb fakültəsinin heyətində 12 professor, 2 dosent və 27 assistent çalışmışdır.

* * *

**Universitetdə** tədris işlərinə ilk azərbaycanlı kadrlar M.Topçubaşov və M.Mirqasımov dəvət edilmişlər.

* * *

**1922-ci ildə** universitetin ilk buraxılışında 30 nəfər həkim diplomu almışdır. Onlardan yalnız 3 nəfəri azərbaycanlı olmuşdur.

* * *

**Azərbaycan Tibb İnstitutunda** uzun müddət kafedra müdiri işləyən Adilə xanım Şaxtaxtinskaya (1894-1951) elmlər doktoru adını alan ilk azərbaycanlı mamaginekoloq qadındır.

* * *

**Azərbaycanın ilk qadın** elmlər doktoru da tibb mütəxəssisi olmuşdur. Bu, 1929-ci ildə oftalmologiya sahəsində elmlər doktoru adını almış Sona xanım Əlixanovadır.

* * *

**BDU-nun** tibb fakültəsində 10 il ərzində 1407 həkim hazırlanmışdır.

* * *

**Azərbaycan Dövlət Tibb İnstitutu** Azərbaycan SSR Xalq Komissarları Sovetinin 19 iyun 1930-cu il tarixli qərarı ilə yaradılmışdır.

* * *

**Fəaliyyətdə** olduğu 10 il ərzində ADTİ-yə (1930-1940) 4733 tələbə qəbul olmuşdur.

* * *

**ATDİ-yə** tələbə qəbulu artırılaraq 1970-1980-ci illərdə 1300 nəfərə çatmışdır.

* * *

**1980-ci ilin 22 avqusunda** yaradılmasının 50 illiyi münasibətilə ADTİ SSRİ Ali Sovetinin fərmanı ilə «Qırmızı Əmək Bayrağı Ordeni» ilə təltif edilmişdir.

* * *

**Azərbaycan SSR** Nazirlər Sovetinin qərarı ilə 1991-ci ildə ADTİ Azərbaycan Dövlət Tibb Universiteti statusunu almışdır.

* * *

**Öz fəaliyyəti dövründə** Tibb Universitetində 10 minlərlə həkim və provizor hazırlanmışdır. ATU ali təhsil sahəsində Avropa İttifaqı, Mərkəzi və Şərqi Avropa ölkələri ilə Şərqi Asiya Ölkələri arasında əməkdaşlıq Tempus Tasis proqramına görə Transavropa əməkdaşlığının üzvüdür.

* * *

**Universitet 1996-cı ildə** dünya ali təhsil müəssisələrinin Beynəlxalq Reyestrinə daxil edilmişdir.

* * *

**1998-ci il sentyabrın 28-də** ATU- nun 11 mərtəbəli tədris binasının və 2000-ci il iyun ayının 19–da ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə Azərbaycan Tibb Universitetinin 70 illik təntənəli yubiley tədbirində isə böyük akt zalının açılışı olmuşdur.

* * *

**2000- ci ildə** ulu öndər Heydər Əliyevin dəstəyi ilə ATU-nun həyatında strateji əhəmiyyət kəsb edən hərbi tibb fakültəsi yaradılmışdır.

* * *

**2002-ci ildə** ATU Avropa Universitetlər Assosiasiyasına tam hüquqlu üzv qəbul edilmişdir.

* * *

**2002- ci ildə** ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycan Tibb Universitetinin ilk klinikası olan Stomatoloji Klinikası yaradılmışdır.

* * *

**2006- cı ildə** ölkə prezidenti cənab İlham Əliyevin yaxından köməkliyi ilə Onkoloji Klinikanın yaradılması haqqında hökumət strukturunda qərar qəbul edilmişdir.

* * *





**2007-ci ilin 11 sentyabrında** ölkə rəhbəri cənab İlham Əliyev Tədris Terapevtik Klinikasının yaradılması haqqında sərəncam imzalamışdır.

* * *

**2008-ci ilin martın 13-də** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının yaradılması haqqında sərəncam imzalamışdır.

* * *

**2010-cu il oktyabrın 1-də** 14 mərtəbəli Tədris Terapevtik Klinikasının açılış mərasimi olmuşdur.

* * *

**Prezident İlham Əliyev 2010- cu il** 28 aprel tarixində Azərbaycan Tibb Universitetinin 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

* * *



**2013-cu il oktyabrın 12-də** ümumi ərazisi 45 min kvadratmetr olan bu cərrahiyönümlü klinika bütün müasir avadanlıqlarla təchiz edilərək ATU-nun müəllim və tələbələrinin ixtiyarına verilmişdir .

* * *

**2016-cı il aprelin 11-də** Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə professor Gəray Çingiz oğlu Gəraybəyli Azərbaycan Tibb Universitetinin rektoru təyin edilmişdir.

* * *

**2017-ci ilin yanvarın 27-də** ATU-nun Böyük Elmi Şurasının keçirilən iclasının 6 saylı qərarına əsasən, ATU-nun yeni gerb və loqosu təsdiqlənmişdir.

* * *

**2017-ci ildə** ali təhsil müəssisələri arasında ilk dəfə olaraq Azərbaycan Tibb Universitetinin şəbəkə infrastrukturunun AzScienceNet elm-kompüter şəbəkəsi vasitəsilə beynəlxalq Eduroam şəbəkəsinə qoşulması təmin olunmuşdur.

* * *

**2020-ci ilin may ayının 14-də** ölkə başçısı möhtərəm Prezidentimiz İlham Əliyev ATU-nun 90 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır.

* * *

**2020-ci lin dekabr ayının 17-də** Azərbaycan Tibb Universiteti Avropanın və dünyanın 900-dən artıq aparıcı ali məktəbini birləşdirən şəbəkəyə qoşulub. ATU "Magna Charta Universitatum" - Universitetlərin Böyük Xartiyasına üzv olub.

**Hazırladı: M.ƏLƏKBƏRLİ**

# Fədakar həkimlərimiz Vətən Müharibəsində

**◆ Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz 30 ilə yaxın işğal altında olan əraziləri 44 günə düşməndən azad etdi. Bütün Azərbaycan xalqı böyük bir ideyadan ilham alıb Müzəffər Ali Baş Komandanın ətrafında toplaşaraq bu mübarizəyə öz töhfəsini verdi. Onların arasında Azərbaycan həkimləri də şərəfli yer tutur.**

## Vətən müharibəsində həkimlərimizin fədakar əməyi

















Heç kimə sirr deyil ki, ən uğurlu hərbi əməliyyatları belə, itki vermədən başa vurmaq qeyri mümkündür. Özəlliklə də, Qarabağ kimi mürəkkəb dağlıq ərazilərdə, 30 ildir öz müdafiə mövqelərini möhkəmləndirən işğalçı qüvvələrə qarşı.

Müdrik dövlət siyasəti sayəsində Müdafiə Nazirliyinin və digər hüquq-mühafizə orqanlarının xəstəxanaları əvvəlcədən təlim keçmiş yüksək səviyyəli mütəxəssislər tərəfindən gücləndirilmiş və vəzifələrinin öhdəsindən uğurla gəlmələrini təmin edən ən müasir tibbi avadanlıqlarla təchiz edilmişdir. Ancaq qaydalara uyğun olmayan şəkildə müharibə aparan və eyni zamanda hərbi əməliyyatların hüdudlarından kənarda yerləşən dinc yaşayış məntəqələrimizi atəşə tutan düşmənimizin vəhşiliyi səbəbindən çoxsaylı yaralılarımız olub və onların müalicəsində mülki strukturların həkimləri də yaxından iştirak ediblər.

Vətən Müharibəsinin ilk günlərindən öz sıralarında yüksək ixtisaslı, həmçinin I Qarabağ muharibəsində təcrubə toplamış üz-çənə cərrahlarını bilrəşdirən Azərbaycan Ağız və üz-çənə Cərrahları Cəmiyyəti İctimai Birliyi Vətən qarşısında borcunu yerinə yetirmək, eyni zamanda əsgər və zabitlərimizə aidiyyəti tibbi xidmət göstərmək məqsədilə Azərbaycan Səhiyyə Nazirinə məktubla müraciət etmişdir. Məktubda ölkəmizin istənilən bölgəsində ehtiyac olduğu təqdirdə orada vəzifəsini yerinə yetirməyə hazır olduğunu bildirmişdir.

İctimai birliyin əsas peşakar qüvvəsinin Azərbaycan Tibb Universitetində çalışdığını nəzərə alaraq, Müdafiə Nazirliyi ilə Səhiyyə Nazirliyinin razılaşması əsasında 2 oktyabr tarixindən ATU-nun Tədris Cərrahiyyə Klinikası hərbi əməliyyatlarda yaralanan hərbçilərə ixtisaslaşmış tibbi yardım göstərməyə başladı.

Fəaliyyətimizin ilk günlərindən xəstəxanada universitetimizin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının əməkdaşları yüksək nizam-intizam nümayiş etdirərək, sutka ərzində növbətçilik təşkil etmiş, gündəlik xəstələrin müzakirəsini və baxışlarını, eləcə də klinikanın digər sahələr üzrə mütəxəssislərilə birgə konsiliumlar aparmış və nəhayət öz profilinə uyğun mürəkkəb əməliyyatlar həyata keçirmişdir. Belə ki, ilk gündən şöbəyə Mərkəzi Hərbi Hospitaldan və regionlarda yerləşən hərbi hospitallardan, eləcə də sanaviasiya yolu ilə birbaşa cəbhə bölgəsindən yaralılar daxil olurdu.

Həkimlərimizin və klinikanın orta tibb personalının fədakar əməyi nəticəsində 50-dən çox yaralı hərbçi üzərində uğurlu cərrahi əməliyyatlar aparılmış və onlar sağalmış vəziyyətdə stasionardan evə yazılmışdır.

Klinika imkan daxilində bu əməliyyatların təminatını öz üzərinə götürmüşdür. Lakin ən böyük problemimiz rekonstruksiya əməliyyatları üçün lazımi vasitələrin (lövhələrin və vidaların) çatışmazlığı olmuşdur. Bu problemin həllində isə iş adamı Samir Abasquliyev bizə dəstək göstərmişdir. Belə ki, ciddi ehtiyacımız olan vasitələri əldə etmək üçün S.Abasquliyev on dörd min manat yardım etmişdir. Həmçinin, həmkarımız, özəl BAKU DENTAL MMC-nin rəhbəri Riad Əliyar-zadə tərəfindən klinikaya tibb avadanlığı –fiziodispenser bağışlanmışdır.

Bildiyiniz kimi, ehtiyacın artması səbəbindən yüzlərlə həkim, könüllü olaraq hərbi əməliyyatlara yaxın yerdə tibbi xidmət göstərmək məqsədi ilə respublikamızın bölgələrinə yollanmışdır. Əminəm ki, bu, vətənpərvərlik duyğusu ilə atılmış addımdır. Lakin nə qədər ehtiyac yaransa da, əməliyyat masasında lazımi hazırlığı olmayan mütəxəssisin dayanmasını doğru hesab etmirəm. Düşünürəm ki, yaralılarımız həkimlərin özündən razı qalması və özlərini təsdiqləməsi üçün material deyil.

Amma zamanında effektiv tibbi yardım yaralıların 70%-dən çoxunun xidmətə geri qayıtmasına imkan verir.

Sonda Azərbaycan Tibb Universitetinin Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının aşağıda göstərilən əməkdaşlarının xidmətini xüsusi ilə qeyd etmək istərdim: dosentlər Fərman Həsənov, Nigar Sultanova, assistentlər İsmayıl Fərzəliyev, Akif Quliyev, Anar Yusubov, Vuqar Əliquliyev, Məhəbbət Cəfərov, Eldar Fərəcov, Toğrul Əliyev, Səxavət Quliev, Elmar Aliyev, Bilal Əliyev, Sahib Bilalzadə, baş laborantlar Sirac Əhmədov, Şahın Quliyev, Amin Əliyev, Cahid Məmmədov, Günel Haciyeva, aspirantlar Elvin Osmanov, Kənan Əmirquliyev, rezidentlər Küşvər Seyidova və Nərmin Qurbanova.

Eşq olsun vətənpərvər Azərbaycan xalqının oğullarına. Qarabağ Azərbaycandır!

**Çingiz RƏHİMOV,**
*Azərbaycan Ağız və üz-çənə Cərrahları Cəmiyyətinin sədri, ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor*

## Öz yarasını unudub, yanındakı yaralıya yardım etməyimizi tələb edən əsgərlə necə öyünməmək olar?

**II Qarabağ müharibəsində yaralı əsgər və zabitlərimizə tibbi yardım göstərən fədakar həkimlərimizdən biri də ATU-nun III Cərrahi xəstəliklər kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru, Tədris Cərrahiyyə Klinikasının Plastik cərrahiyyə şöbəsinin müdiri Mirsaleh Abdullayevdir.**





Onun verdiyi açıqlamaya görə, sentyabrın 27-sində II Qarabağ müharibəsinin başlanması ilə əlaqədar Tibb Universitetinin və klinika rəhbərliyinin xeyir-duası ilə könüllü olaraq ön cəbhəyə yollanır. Tibbi xidməti zamanı hərbçilərimizlə bağlı hər kəsi duyuğulandıracaq şahidi olduğu çoxsaylı epizod və hadisələrdən də söhbət açdı.

Həkim təəssüratlarını bizimlə bölüşərkən bildirdi ki, ora çatanda təcili tibbi yardım və hərbi maşınlar yaralıları xəstəxanaya çatdırırlarmış: "Yerli əhali də xəstəxananın qarşısına toplaşaraq yaralıların daşınmasına kömək edirdi. Vaxt itirmədən xəstəxananın direktoru Natiq Şükürovla görüşüb, ona gəlişimin məqsədi barədə məlumat verdim. Dərhal cərrahiyyə formamı geyinərək fəaliyyətə başladım. Gətirilən yaralılar ambulansdan düşürülən kimi çeşidləmə aparılır, yaraların ağırlıq dərəcəsindən asılı olaraq ya təcili yardım, ya da əməliyyatxana otağına yerləşdirilirdi. Xəstəxananın ulturasəs cihaz, rəqəmsal rentgen, digər müasir cihazlarla təmin edilməsi yaralılara yüksək səviyyədə tibbi yardım etməyimizə yardımçı oldu".

M.Abdullayev xəstəxananın yaxınlığında yerləşən Füzuli Diaqnostika Mərkəzində yaralılara kömək edən III Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Fariz Camalovun ən çətin anlarda onlara kömək və dəstək olmasından da danışdı:" Professor F.Camalov ən çətin anlarda bizə məsləhət və yardımını əsirgəmədi. Həmişə yanımızda oldu. Bu da bir gənc həkim kimi bizdə ruh yüksəkliyinin daha da artmasına, yaralılara yorulmadan tibbi xidmət göstərməyimizə səbəb oldu. Yardım göstərdiyimiz yaralılar yenidən çeşidlənərək döyüş bölgəsindən ya paytaxta, ya da digər rayonlarda təşkil olunmuş hospitallara təxliyə olunurdu."

Həkim M.Abdullayev gün ərzində xəstəxanaya 80-150 arası yaralının qəbul edildiyini və fəaliyyət göstərdiyi 16 gün ərzində həkim briqadası tərəfindən 1000-dən çox yaralıya tibbi yardım göstərildiyini söylədi.

M.Abdullayev, həmçinin, yaralılarla bağlı bizi təsirləndirən və duyğulandıran bəzi məqamlara da toxundu: "Diqqətimi çəkən əsas məqamlardan biri əsgərlərimizdə döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək və onların psixoloji cəhətdən hazırlıqlı olmaları idi. Sevindirici hal idi ki, yaralı əsgər və zabitlər yaralarının tez sağalmasını və yenidən döyüşə qayıtmalarını istəyirdilər. Onlarda qələbə eşqinin olması adamda fərəh hissi yaradırdı. Tələbələrimizə baxmayaraq, bir yaralı komandirin ayağının yarası sarınan kimi, axsya-axsaya döyüşə qayıtmasını heç cür unuda bilmirəm. Öz yarasını unudub, yanındakı yaralıya yardım etməyimizi tələb edən əsgərlə necə öyünməmək olar? ... Sağ qolunun bazu nahiyəsindən güllə yarası almış əsgərimizə yardım göstərirdim. Yarası nisbətən yüngül idi. Amma əsgər amputasiya olunmasından ehtiyatlanaraq "doktor, mən döyüşə gələndən sonra övladım dünyaya gəlib. Onu heç qucağıma almamışam, qolumu kəsmə!"- deyən əsgərin arzularını eşidəndə necə kövrəlməyə, duyğulanmayasan?" Bu tipli çoxsaylı nümunələrlə qarşılaşdığını bildirən M.Abdullayev qəhrəman əsgər və zabitlərimizə tibbi xidmət göstərməyi özünə mənəvi borc hesab edir.

Atası, tibb xidməti mayoru Miryaqub Abdullayevin də I Qarabağ döyüşlərində iştirak etdiyini, hərbiçilərimizə tibbi yardım göstərdiyini və taleyin qisməti ilə onun da II Qarabağ müharibəsində atasının keçdiyi yolu davam etdirdiyini bildirdi. Qazanılmış qələbədə müzəffər ordumuzla yanaşı, həkimlərimizin də kifayət qədər rolu olduğunu vurğulayan M.Abdullayev bir füzulili kimi Vətən qarşısında göstərdiyi xidmətdən qururlandığını da dilə gətirdi.

**ATU-nun mətbuat xidməti**

*Yubiley*

# Mənalı ömrü ilə kamillik zirvəsinə ucalan alim, peşəkar cərrah



**Azərbaycan Respublikasının Əməkdar həkimi, "Azərbaycan Uşaq Cərrahlar Assosiasiyası" İctimai Birliyinin sədri, tibb elmləri doktoru, ATU-nin Uşaq cərrahlığı kafedrasının professoru Çingiz Bayram oğlu Quliyevin 2 yanvar 2021-ci ildə anadan olmasının 80, elmi-pedaqoji və təcrübi fəaliyyətinin 52 ili tamam olur. Onun keçdiyi mənalı həyat yolu gənc həkimlər üçün bir nümunə ola bilər.**

Çingiz Bayram oğlu Quliyev 2 yanvar 1941-ci ildə Qarabağın dilbər güşələrindən biri olan Cəbrayıl rayonunun Horovlu kəndində anadan olmuşdur. VII sinifə qədər Horovlu kənd məktəbində, orta təhsilini isə Cəbrayıl rayon M.Qorki (indiki akademik M.Mehdizadə) adına məktəbdə almışdır. 1962-ci ildə doğulduğu Horovlu kəndinin çoxəsrlik tarixində ilk dəfə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki ATU) daxil olan Çingiz Quliyev olmuşdur. Eyni zamanda Cəbrayıl rayon M.Qorki adına orta məktəbi bu günə qədər qurtaran məzunlar arasında da yeganə tibb elmləri doktoru, professor Çingiz Quliyevdir.

O, institutda oxuduğu illərdə tələbə elmi cəmiyyətinin fəal üzvlərindən biri olmuş və elmi-tədqiqat işinə xüsusi maraq göstərmişdir. İnstitutu bitirən vaxt onun 8 elmi işi tibbi mətbuat səhifələrində çap olunmuşdur. Tələbə olarkən 1965-1968-ci illərdə Semaşko adına xəstəxananın uşaq cərrahiyyə şöbəsində tibb qardaşı işləməklə uşaq cərrahiyyəsinin sirlərini öyrənərək həkimlik peşəsi üzrə təcrübəsini artırmışdır. O institutu bitirəndə artıq 400-dən çox cərrahi əməliyyatlarda assistent kimi iştirak etmiş və bir çox cərrahi əməliyyatları sərbəst icra etmişdir. 1968-ci ildə institutu bitirəndən sonra Böyük Elmi Şuranın qərarı ilə yaxşı oxuyan və tələbə elmi cəmiyyətinin fəal üzvlərindən 5 nəfəri Moskvaya və 5 nəfər tələbəni isə Leninqrada neyrocərrahiyyə ixtisası üzrə kliniki ordinaturaya və aspiranturaya göndərmək qərara alınmışdır. Leninqrada göndərilən tələbələr arasında Çingiz Quliyev də var idi. O, 1968-1973-cü illərdə A.L.Polenov adına ET Neyrocərrahiyyə İnstitutunda kliniki ordinaturanı və aspiranturanı qurtararaq 1973-cü ildə "Uşaqlarda qapalı kəllə-beyin travmasının kəskin və uzaq dövrlərdə klinikası, diaqnostikası və müalicəsi" mövzusunda tibb elmləri namizədi (tibb üzrə fəlsəfə doktoru) dissertasiyasını müdafiə etmişdir. 7 yanvar 1974-cü ildə müsabiqə yolu ilə ATU-nun Uşaq cərrahlığı kafedrasına assistent vəfizəsinə seçilmişdir. 1976-1981-ci illərdə həmin kafedranın dosenti işləmişdir..

1970-1982-ci illərdə Ulu Öndər Heydər Əliyevin böyük səyi nəticəsində keçmiş Sovetlər İttifaqının Moskva, Leninqrad, Kiyev və başqa mərkəzi şəhərlərinin aparıcı institutlarında Azərbaycan üçün doktoranturanun təşkilinə nail olunmuşdur. Buna müvafiq olaraq 1981-ci ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin ali məktəb rektorlarına hər kafedradan bir nəfər istedadlı və ümidverən mütəxəssisin SSRİ-nin mərkəzi şəhərlərinə doktoranturaya göndərmək tapşırılmışdır.

ATU-nun Böyük Elmi Şurasının qərarı ilə 1982-ci ildə Uşaq cərrahlığı kafedrasından dosent Çingiz Quliyev Leninqrad Pedaitriya İnstitutunun Uşaq cərrahlığı kafedrasına doktoranturaya göndərmişdir. 1984-cü ildə SSRİ MEA-nın müxbir üzvü, tibb elmlər doktoru, professor Qrey Əliyeviç Bairovun rəhbərliyi altında "Uşaqlarda qarın boşluğu üzvlərinin kəllə-beyin travması ilə müştərək zədələnməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 21 iyun 1985-ci ildə SSRİ Nazirlər Kabineti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin qərarı ilə doktorluq dissertasiyası təsdiq edilərək ona "Uşaq cərrahlığı" ixtisası üzrə tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Qeyd etmək lazımdır ki, həmin il Azərbaycandan doktoranturaya göndərilən 16 nəfərdən yalnız Çingiz Quliyev ilk olaraq vaxtında müdafiə edərək bu yüksək ada layiq görülmüşdür.

1985-ci ildə Çingiz Quliyev ATU-nun Uşaq cərrahlığı kafedrasına professor vəzifəsinə seçilmişdir. O, 1985-1994-cü illərdə kafedranın professoru və tədris hissə müdiri işləmişdir. 1995-2017-ci illərdə ATU-nun uşaq cərrahlığı kafedrasına rəhbərlik etmiş, 2018-ci ildən isə həmin kafedranın məsləhətçi professoru vəzifəsində çalışır.

Onun kafedraya rəhbərlik etdiyi illərdə tədris, elmi və praktiki səhiyyə sahəsində böyük nəaliyyətlər əldə olunmuşdur. İlk dəfə olaraq 2000-ci ildə onun latın qrafikası ilə "Uşaq cərrahlığı" dərsliyi çap olunmuşdur. Bu dərsliyə görə o, 2001-ci ildə Azərbaycan Respublikasının "Təhsil" Cəmiyyətinin diplomuna və mükafata layiq görülmüşdür. Bu dərslik sonradan 2005-ci və 2008-ci ildə yenidən işlənərək təkrarən çap edilmişdir.

Professor Ç.Quliyev uşaq cərrahlığının müxtəlif aktual problemlərinə həsr edilmiş, yerli və xarici tibbi mətbuatda çap olunmuş 328 elmi işin, 3 uşaq cərrahlığı dərsliyinin, 3 dərs vəsaitinin, 5 monoqrafiyanın, 2 rəhbərliyin, 1 atlasın, 15 tədris-metodik vəsaitin, 7 səmərələşdirici təklifin, 1 ixtiranın müəllifidir. Azərbaycanda "Uşaq cərrahlığı" kafedrasının inkişaf tarixi kitabı da ilk dəfə olaraq 2010-cu ildə Çingiz Quliyev tərəfindən yazılmışdır.

Rəhbərliyi altında 2 tibb elmlər doktoru, 11 tibb üzrə fəlsəfə doktoru dissertasiyaları yerinə yetirilmişdir.

Professor Ç.Quliyev geniş diapozona malik bir cərrahdır. O, baş və onurğa beynində, üz və boyun nahiyəsində, yemək borusunda, döş qəfəsi və qarın boşluğu üzvlərində, sidik-cinsiyyət, dayaq-hərəkət orqanlarının inkişaf qüsurlarında və cərrahi xəstəliklərində yüksək peşəkarlıqla cərrahi əməliyyatlar aparır. Bütün bunlar imkan vermişdir ki, onun rəhbərliyi altında Uşaq cərrahlığının müxtəlif sahələrini əhatə edən elmi-praktiki istiqamətlər müəyyənləşdirilsin.

Gərgin fəaliyyəti ilə elmin yüksək zirvəsini fəth edən professor Çingiz Quliyev 1995-ci ildə ilk dəfə yoğun bağırsağın ağır anadangəlmə inkişaf qüsuru olan Hirşprung xəstəliyinin cərrahi müalicəsi Respublikamızda onun tərəfindən həyata keçirilmiş, bu qüsurla olan çoxsaylı xəstələr onun təklif etdiyi ixtira ilə şəfa tapmışdır.

Bundan əlavə, 2002-ci ildə Respublikamızda ilk dəfə onun tərəfindən ağır eybəcərliklə bir bədən, 2 çanaq, 4 ətraf, iki kişi cinsli orqanı ilə olan 2 günlük uşaq uğurla cərrahi əməliyyat olunmuşdur. Bu əməliyyat bir çox yerli və xarici mətbuat səhifələrində geniş işıqlandırılaraq, böyük marağa səbəb olmuşdur. Kanadalı kinorejissor bu məsələ ilə maraqlanaraq Bakıya gəlmiş, professor Ç.Quliyevlə görüşmüş, ətraflı məlumat və materiallar toplamış, uşaqla və onun valideynləri ilə görüşərək, söhbətlər etdikdən sonra özünün çəkdiyi "Təbabətdə möcüzələr" adlı filmində həmyerlimizin bu uğurlu əməliyyatı 11-ci hadisə kimi verilərək ona 7 dəqiqəlik yer ayrılmışdır.

Aldığı elmi və praktiki biliklə yüzlərlə, minlərlə körpəni xəstəliklərin caynağından xilas etməklə, onların valideynlərinə, nənə-babalarına, çoxsaylı qohum-əqrəbalarına sevinc bəxş edən Azərbaycan tibb elminin tanınmış simalarından olan professor Çingiz Quliyev həm də el-obasına bağlı bir insandır.

Professor Ç.Quliyev böyük xeyriyyə işləri ilə də özünə böyük sevgi və hörmət qazanmışdır. Ulu öndər Heydər Əliyevin "Sağlam Uşaq, Sağlam gələcəyin təməlidir" ideyasına sadiq qalaraq, sağlam nəsil böyütmək üçün savadlı həkim kadrlarını hazırlamaq naminə ATU-nun kitabxanasına 18 oktyabr 2018-ci ildə 500 (beş yüz) nüsxə, 14 dekabr 2018-ci ildə isə Naxçıvan Muxtar Respublikasının Dövlət Universitetinin Tibb fakültəsinə 300 (üz yüz) nüsxə 654 səhifəlik "Uşaq cərrahlığı" dərsliyini təmənnasız hədiyyə etmişdir. Bundan əlavə, ATU-nun Uşaq cərrahlığı kafedrasına rəhbərlik etdiyi 22 il ərzində məcburi köçkün və qaçqın ailələrdən olan tələbələrə dərsliklərini, dərs vəsaitlərini, monoqrafiyalarını və "Uşaqlarda cərrahi patologiyaların" atlasını təmənnasız hədiyyə etmişdir.

Professor Ç.Quliyevin xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. 20 sentyabr 2010-cu ildə ona Azərbaycan Respublikasının "Əməkdar həkimi" fəxri adı verilmişdir. O, ATU-nun və Səhiyyə Nazirliyinin "Fəxri Fərmanları" ilə təltif olunmuşdur.

Professor Çingiz Quliyev bir ziyalı, müdrik insan, obyektiv və prinsipial müəllim, cərrah, elm adamı kimi Respublikamızda özünün yeni bir uşaq cərrahlığı məktəbini yaratmışdır.

Yaşının ixtiyar və müdrik dövrünü yaşayan Çingiz həkimin 27 illik Vətən həsrətinə də son qoyuldu. Cəbrayıl rayonu və doğulub boya-başa çatdığı Horovlu kəndinin işğaldan azad olmasını görmək ona da nəsib oldu. Bu xoşbəxtliyi ona yaşadan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə, Müzəffər Ordumuza dərin təşəkkürünü bildirir.

Azərbaycan elminə verdiyi töhfələr, ən əsası isə öz şəxsiyyəti və keçdiyi ömür yolu ilə kamillik zirvəsinə ucalan Çingiz Bayram oğluna dəyərli vətən övladı, qayğıkeş və xeyirxah insan kimi bundan sonra da yeni uğurlar, ən başlıcası isə möhkəm can sağlığı diləyirik.

***Uşaq cərrahlığı kafedrasının kollektivi***

# ATU-nun Normal fiziologiya kafedrası Azərbaycan Milli Aviasiya Akademiyası və Lambert nəşriyyatı ilə əməkdaşlıq edir

**2002-ci ildə Almaniyada yaradılmış Lambert elmi nəşriyyat akademiyası (Lambert Academic Publishing) Avropa, Afrika Asiya və Latin Amerika ölkələrindən olan çoxsaylı müəllifləri özündə birləşdirən Dünyaca məşhur bir elmi nəşriyyat mərkəzidir. Artıq bir neçə ildir ki, Azərbaycan Milli Aviasya Akademiyasının "Aviasiyada insan amili" problem laboratoriyası və ATU-nun Normal fiziologiya kafedrası bu nəşriyyat mərkəzi ilə əməkdaşlıq edir.**

Qeyd etmək lazımdır ki, 1998-ci ildə ölkəmizdə ilk dəfə olaraq akademik A.Paşayevin rəhbərliyi ilə aviasiyada insan amilinə aid elmi tədqiqat işləri aparılmağa başlanılmışdır və hazirda bu işlər müvəffəqiyyətlə davam etdirilir. Hələ 2018-ci ildə bu nəşriyyatda AMEA-nın akademiki A.Paşayayevin və AMEA-nın müxbir-üzvü A.Məmmədovun müəllifləri olduğu «Психофизиологические характеристики авиадиспетчеров УВД» adlı monoqrafiya çap olunmuşdur. Bu il isə həmin nəşriyyatda yenə AMEA-nın akademiki A.Paşayayev və AMEA-nın müxbir-üzvü A.Məmmədovun müəllifliyi ilə ingilis dilində "Psychophysiological characteristics of air traffic controllers of ATC" adlı monoqrafiya çap olunaraq istifadəyə verilmişdir. Müəlliflər kitabın çapdan çıxmasını Şanlı Azərbaycan Ordusunun Qarabağ uğrunda Vətən Müharibəsində qazanmış olduğu tarixi zəfərinə həsr etmişdilər.

Kitabda göstərilmişdir ki, müasir elmi texniki tərəqqi dövründə aviasiya sahəsində bir çox yeni mütərəqqi elmi-praktik nəticələr göstərilmişdir. Bu nəticələrə görə həm hava hərəkətinin, həm də uçuş gəmisinin daha effektiv idarə edilməsi ilə əlaqədar "insan amili" sahələrində uçuş təhlükəsizliyinin təmin olunması istiqamətində yeni ixtiralar və tədbirlər tətbiq olunmaqdadır. Lakin, bu proseslərin icra olunmasında, onlara nəzarət olunmasında




uçuşların təhlükəsizliyinin mükəmməl qorunması üçün "insan amili" hələ də ön plandadır və müasir elmi tərəqqi dövründə prioritet rol oynayır.

Əgər XX əsrin əvvəllərində bir aviasiya limanında cəmi bir-iki təyyarə enib-qalxırdısa, bu gün bu rəqəm onlarla, bəzi hallarda isə (inkişaf etmiş dünya ölkələrində) yüzlərlə olur. Bu da, öz növbəsində hava hərəkətini idarə edən və onun təhlükəsizliyinə bir başa nəzarət edən dispetçerlərin dəqiq və səhvsiz fəaliyyətlərinə nə dərəcədə böyük ehtiyac olduğunu bir daha sübuta yetirir.

Qeyd olunmalıdır ki, insanın digər şəxsiyyət göstəricilərindən dayanıqsız psixi durumda olan depressiv və ya həddindən çox optimizm, impulsiv, həyacanlı, introvers (qapalı), emosional zəif labillik, həddindən güclü öz-özünə nəzarət, özünə inamsızlıq, şizofreniya əlamətləri ilə xarakterizə olunur. Bu göstəricilərdən asılı olaraq insanın koqnitiv dəyişiklikləri və pozuntuları daha da dərinləşir. Buna görə də şəxsiyyət göstəricilərinin tədqiqi ön plana çıxır. Burada daha dəqiq və ciddi sərhəd və ya normativ təyini tələb olunur. İndiyədək insan amilinin koqnitiv və şəxsiyyət psixofizioloji göstəricilərin mexanizmləri bir-biri ilə qarşılıqlı əlaqələri və onların HHİE-nin effektivliyinə və təhlükəsizliyinə təsiri, həm test, həm aparat üsulları ilə öyrənilməmişdir.

Hazırkı dövrdə müasir elektroensefaloqrafiya üsulları ilə psixoemosinal dəyişikliklərin olduğunu və onların psixofizioloji mexanizmlərin nəzarətdə saxlamağın mümkünlüyünü nəzərə alsaq, bu dəyişiklikləri öncədən təyin etmək və lazım gəldikdə onları aradan qaldırmaq istiqamətində profilaktiki tədbirlər görmək olar.

Bütün bunları nəzərə alaraq Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) dövrü sənədlərində uçuşların təhlükəsizliyini təmin etmək məqsədi ilə "insan amili"nə və xüsusən də onun psixofizioloji mexanizmlərinin öyrənilməsinə xüsusi diqqət yetirilir.

Kitabda HHİE-nin effektivliyini artıran aviadispetçerlərin və pilotların psixofizioloji mexanizmləri və koqnitiv-şəxsiyyət göstəricilərinin qarşılıqlı əlaqələrinin tədqiqi, proqnozu və korreksiyası məsələlərinə xüsusi yer ayrılmışdır. Psixi dayanıqlı və müxtəlif şkalalarla müəyyən olunan psixi dayanıqsız şəxsiyyət göstəricilərin ayrı-ayrı koqnitiv psixofizioloji göstəriciləri ilə qarşılıqlı əlaqələri onların HHİE-nin effektivliyinə təsiri göstərilmişdir.

Şəxsiyyət psixi dayanıqlı və müxtəlif şkalalarla xarakterizə olunan şəxsiyyət psixi dayanıqsız psixofizioloji göstəricilərinin və vegetativ, şəxsiyyət koqnitiv psixofizioloji göstəricilərin (peşə vacib psixofizioloji keyfiyyətlər) EEQ identifikasiyaları aparılmışdır.

Audiomotor reaksiya sürətinin, koqnitiv göstəricilərin və müxtəlif reaksiyaların psixotest aparatında təhlili aparılmış və dispetçerlərin peşə fəaliyyətində vegetativ, koqnitiv və şəxsiyyət göstəriciləri ilə ANS komponentlərinin qarşılıqlı əlaqələri öyrənilmişdir.

**Aqil ƏLİYEV,**
*Normal fiziologiya kafedrasının dosenti*

# Ədilə Əvəz qızı Namazova

**Azərbaycanın elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli pediatr və kardioloq, Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Dövlət mükafatı laureatı, Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Ədilə Əvəz qızı Namazova 2020-ci il dekabrın 16-da ömrünün 95-ci ilində vəfat etmişdir.**



Ədilə Namazova 1926-cı il sentyabrın 9-da Ağdam rayonunun Seyidli kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1944–1949-cu illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1949-cu ildə başlayan Ədilə Namazova həmin vaxtdan etibarən 1953-cü ilədək Ağdam rayonunda Uşaq tibb məsləhətxanasının müdiri işləmişdir. O, 1954–1957-ci illərdə Moskva şəhərində, SSRİ Səhiyyə Nazirliyinin Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun aspiranturasında oxumuş, aspiranturanı bitirdikdən sonra, 1958–1959-cu illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda Müalicə profilaktika fakültəsinin Uşaq xəstəlikləri kafedrasının assistenti, 1960–1965-ci illərdə SSRİ Tibb Elmləri Akademiyasının Pediatriya Elmi Tədqiqat İnstitutunun doktorantı olmuşdur. Ə.Namazova 1965-ci ildən ömrünün sonunadək ATU-nun Uşaq xəstəlikləri kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1959-cu ildə tibb elmləri üzrə namizədlik, 1965-ci ildə doktorluq dissertasiyalarını müdafiə edən Ə.Namazova 1966-cı ildə professor elmi adına layiq görülmüş, 1971-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, 1983-cü ildə isə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Azərbaycanda tibb elminin tədrisi və yeni nailiyyətlərlə zənginləşdirilməsində akademik Ədilə Namazovanın xüsusi əməyi vardır. Uzun illər ərzində tibb elminin müxtəlif sahələrinə dair apardığı araşdırmaları alimə ölkəmizdə və onun hüdudlarından kənarda geniş şöhrət qazandırmışdır. Ədilə Namazova respublikada pediatriya elmi məktəbinin yaradıcılarındandır. Alimin uşaq sağlamlığının qorunmasına yönəlmiş məhsuldar elmi fəaliyyətinin başlıca istiqamətləri uşaqlarda revmatizm və ürək qüsurlarının diaqnostikası və müalicə metodlarının təkmilləşdirilməsi ilə bağlıdır. Məhz bu elmi işlər sayəsində ürək çəpərinin anadangəlmə qüsurlarının klinik xüsusiyyətləri öyrənilmiş, süni qan dövranı şəraitində cərrahi müalicənin mümkünlüyü kriteriyaları müəyyən edilmişdir. Həmin tədqiqatlar, eyni zamanda, sonrakı fundamental araşdırmalar və yeni müalicə üsullarının tətbiqi üçün geniş imkanlar açmışdır. Alim, həmçinin müxtəlif metodlardan istifadə əsasında təcrübi tövsiyələri ilə tibb elminə töhfələr vermişdir. Respublikada tibbi xidmətin müasir tələblərə cavab verən formalarının təşkilində Ədilə Namazovanın təqdirəlayiq xidmətləri olmuşdur.

Ədilə Namazova 400-dən artıq elmi əsərin, o cümlədən 30 monoqrafiyanın, dərsliyin və metodik vəsaitin, ixtiralar və səmərələşdirici təkliflərin müəllifidir. Alimin xarici dillərdə işıq üzü görən əsərləri elmi ictimaiyyət arasında rəğbətlə qarşılanmışdır.

Ədilə Namazova çoxillik pedaqoji fəaliyyəti dövründə zəngin bilik və bacarıq nümayiş etdirərək yüksək hazırlıqlı mütəxəssislərin yetişdirilməsi işinə xüsusi diqqət göstərmişdir. Onun rəhbərliyi ilə respublikamız və xarici ölkələr üçün 60-a yaxın tibb elmləri doktorları və tibb üzrə fəlsəfə doktorları hazırlanmışdır. Alim mötəbər beynəlxalq forumlarda pediatriyanın aktual problemlərinə dair məzmunlu çıxışları ilə Azərbaycanın müasir tibb elmini layiqincə təmsil etmişdir.

Səmərəli ictimai fəaliyyət göstərən Ədilə Namazova 1988–1992-ci illərdə SSRİ xalq deputatı olmuş, habelə bir sıra beynəlxalq elmi cəmiyyətlərin üzvü seçilmişdir.

Ölkəmizdə təbabətin inkişafı və yüksək ixtisaslı həkim kadrların yetişdirilməsi sahəsində akademik Ədilə Namazovanın xidmətləri dövlət tərəfindən lazımınca qiymətləndirilmişdir. O, müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından olan "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmiş, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na layiq görülmüşdür.

Görkəmli alim, mahir pedaqoq və səmimi insan Ədilə Əvəz qızı Namazovanın xatirəsi həmişə əziz tutulacaq.

# Şərif İslam oğlu Mahalov

**Azərbaycanın elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Azərbaycan Nevroloqlar Assosiyasiyasının və Epilepsiya ilə Mübarizə Beynəlxalq Liqasının Azərbaycan bölməsinin prezidenti, Azərbaycan Respublikasının Əməkdar həkimi, tibb elmləri doktoru, professor Şərif İslam oğlu Mahalov 2020-ci il dekabrın 18-də dünyasını dəyişib.**



Ş.Mahalov 1939-cu il sentyabrın 15-də dünyaya göz açmışdır. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra 1958-ci ildə Samara Dövlət Tibb İnstitutunun müalicə fakültəsinə daxil olmuş, 1960-cı ildən təhsilini Azərbaycan Dövlət Tibb İnstitutunda davam etdirmişdir. 1964-cü ildə institutu bitirərək, Zaqatala Mərkəzi Rayon Xəstəxanasında işə başlamış, bundan sonra Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda kurs keçərək nevroloq ixtisasına yiyələnmişdir.

Dörd il praktik həkim vəzifəsində çalışdıqdan sonra ATİ-nin sinir xəstəlikləri kafedrasında aspiranturaya qəbul olunmuş və vaxtından əvvəl namizədlik dissertasiyası müdafiə etmişdir. Gənc alim 1971-ci ildə həmin kafedranın assistenti vəzifəsində saxlanılmış, kafedrada müalicəvi və pedaqoji işlərlə məşğul olmaqla yanaşı, elmi axtarışlarını da davam etdirərək yeni istiqamətli tədqiqat işləri aparmışdır. 1987-ci ildə N.İ.Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunda "Sinir və sinir-əzələ sistemlərinin irsi xəstəliklərinin fenotipik polimorfizmi və epidemiologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə edib, professor elmi adına layiq görülmüş və 1991-ci ildə ATİ-nin I nevrologiya və tibbi-genetika kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 2011-ci ildə ATU-nun nəzdində fəaliyyət göstərən I və II Nevrologiya və tibbi genetika kafedraları birləşdirilmiş, həmin kafedranın müdiri vəzifəsinə professor Ş.Mahalov seçilmişdir.

Professor Ş.Mahalovun Hantinqton xoreyası, Tomsen miotoniyası və irsi ataksiyaların patogenezinin öyrənilməsi üzrə işləri böyük maraq doğurmuşdur. O, elektromioqrafiya (EMQ) və elektroneyromioqrafiyanın (ENMQ) kompleks tətbiqi əsasında xəstəliyin mərhələlərini obyektiv əks etdirən meyarlar təklif etmiş və dünya təcrübəsində ilk dəfə olaraq, Hantinqton xoreyası, spino-serebellyar ataksiyalı xəstələrin qohumlarını müayinədən keçirərək sübut etmişdir ki, EMQ və ENMQ-də alınan dəyişikliklər xəstəliyin kliniki təzahürlərinin üzə çıxmasını qabaqlayır. O, aşkar edilmiş xəstələrin müalicəsi üçün tələb olunan vəsaiti və xəstəliyin səviyyəsinin aşağı düşməsi zamanı edilən qənaətin ölçüsünü hesablamışdır.

Professor Ş.Mahalovun rəhbərliyi altında epilepsiyanın aktual problemlərinə həsr edilmiş 1 doktorluq, 8 namizədlik işi hazırlanmışdır. Ümumiyyətlə, onun rəhbərliyi altında 1 doktorluq və 16 namizədlik dissertasiyası yerinə yetirilmişdir. Alim çap olunmuş 251 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. Professor Ş. Mahalov uzun illər Səhiyyə Nazirliyinin baş nevropatoloq-mütəxəssisi, ATU-nun FD 03.015 Dissertasiya Şurasının sədri, AAK-ın Ekspert Şurasının üzvü olmuşdur. Şərif müəllim onlarca xarici ölkədə keçirilən elmi konqres və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Professor Ş.Mahalov dəfələrlə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və ATU-nun Fəxri fərmanlarına və digər mükafatlara layiq görülmüşdür.

2010-cu ildə ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə ona çoxillik qüsursuz xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Öz ətrafında daim işıqlı və şəfqətli bir aura yarada bilən görkəmli alim, qayğıkeş müəllim, təvazökar ziyalı olan professor Şərif Mahalovun xatirəsi hər zaman ehtiramla anılacaq.

# Fazil Səməd oğlu Qurbanov

**Azərbaycanın elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Rusiyanın Azərbaycan Diaspor Təşkilatları Konfederasiyasının sədri, akademik Fazil Qurbanov 76 yaşında dünyasını dəyişmişdir.**

Fazil Səməd oğlu Qurbanov 18 fevral 1944-cü ildə Bakıda anadan olmuşdur. O, 1973-cü ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) Müalicə-profilaktika fakültəsini bitirdikdən sonra Respublika Uroloji Xəstəxanası nəzdində internatura keçmişdir.

1975-ci ildən Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunun Cərrahiyyə qrupunun elmi işçisi olan alim 1980-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının (TEA) Ümumittifaq Elmi-Cərrahiyyə Mərkəzinin nəzdində aspiranturaya daxil olmuş, daha sonra cərrahiyyə üzrə doktorantura keçmişdir.

F.Qurbanov 1983-cü ildə "Cərrahi müalicədən sonra kardiospazm residivində pnevmatik kardiodilatasiya" mövzusunda namizədlik, 1987-ci ildə isə "Qida borusu xərçəngində və xoşxassəli strikturalarında birmomentli ezofaqoplastika" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

1989-cu ildə Azərbaycan Elmi-Tədqiqat Qastroenterologiya İnstitutunda Qida borusu, mədə və onikibarmaq bağırsaq cərrahiyyəsi bölməsinin rəhbəri kimi fəaliyyətə başlamış və Azərbaycan Tibb İnstitutunun Cərrahiyyə kafedrasının professoru olmuşdur.

1999-cu ildən etibarən fəaliyyətini Moskvada davam etdirən alim ömrünün sonuna kimi Rusiya Federasiyası Yollar Nazirliyinin N.A.Semaşko adına Mərkəzi Kliniki Xəstəxanasında Cərrahiyyə şöbəsinə rəhbərlik etmiş, eyni zamanda Rusiya Xalqlar Dostluğu Universitetinin Hospital cərrahiyyəsi kafedrasının professoru vəzifəsində çalışmışdır.

Xora xəstəliyi cərrahiyyəsi və əməliyyat olunmuş mədə xəstəliklərində bərpa əməliyyatları, kardiospazm və əməliyyat olunmuş qida borusu xəstəlikləri, xoşxassəli çapıq strikturaları və qida borusu xərçəngi, qarın boşluğu və peritonarxası sahə orqanlarının mini invaziv cərrahiyyəsi, donor qanından istifadə olunmadan həcmli torakal və abdominal əməliyyatların aparılması F.Qurbanovun tədqiqatlarının əsas istiqamətləridir.

Görkəmli cərrah 230-dan çox elmi əsərin, o cümlədən 3 monoqrafiya, 18 ixtira və səmərələşdirici təklifin müəllifidir. Onun rəhbərliyi altında 7 elmlər və 14 fəlsəfə doktoru hazırlanmışdır.

F.Qurbanov 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Alim, həmçinin N.İ.Piroqov adına Cərrahlar Assosiasiyasının, Rusiya Endoskopik Cərrahlar Assosiasiyasının, Beynəlxalq Cərrahlar Kollecinin və Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü idi.



Mənalı ömrünü elmin tərəqqisinə həsr etmiş alimin işıqlı xatirəsi elmi və tibbi ictimaiyyətin, onu tanıyanların qəlbində daim yaşayacaqdır.

*Allah rəhmət eləsin, qəbrləri nurla dolsun!*

***ATU-nun REKTORLUĞU,***
***Həmkarlar İttifaqı Komitəsi***

# Gələn ildən hər kəsin ailə həkimi olacaq

**2021-ci il ərzində icbari tibbi sığorta bütün ölkədə tətbiq ediləcək. İcbari tibbi sığortanın tətbiqi ilə sığortaolunanlar ailə həkiminin xidmətindən yararlana biləcəklər. Ailə həkimi (sahə həkimi-terapevti, sahə həkimi-pediatrı) sığortaolunanlara ilkin səhiyyə xidmətləri göstərən həkimdir.**




Təcili və təxirəsalınmaz tibbi yardım istisna olmaqla, vətəndaş səhhətində yaranan narahatlıqla bağlı ilk növbədə ailə həkiminə müraciət etməlidir. Ailə həkimi vətəndaşı müayinə/müalicə etdikdən sonra ixtisaslı tibbi yardıma ehtiyac olarsa, ixtisaslı həkimə göndəriş verir.

Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən bildirilib.

Ailə həkimini seçmək və ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsində qeydiyyata alınma prosesi "Sığortaolunanların ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsində təhkimolunma Qaydası" əsasında həyata keçirilir.

Belə ki, ailə həkimini seçmək üçün sığortaolunan yaşadığı ərazi üzrə ən yaxın olan ilkin səhiyyə xidmətini göstərən dövlət tibb müəssisəsinə (poliklinika/Ailə Sağlamlıq Mərkəzi/kənd həkim məntəqəsi) müraciət etməlidir. Ərizə formasını doldurmalı və qeydiyyatçıya ərizə ilə yanaşı, şəxsiyyət vəsiqəsini, eləcə də yaşadığı ünvan üzrə qeydiyyata dair sənədi təqdim etməlidir. Ailə həkimini seçərək sığortaolunan tibb müəssisəsində qeydiyyata alınır.

Sığortaolunan ailə həkimini seçmək və məhdudiyyət qoyulmadan dəyişməkdə sərbəstdir. Lakin sığortaolunan eyni zamanda iki və ya daha çox tibb müəssisəsində qeydiyyat üçün müraciət edə bilməz. Vətəndaş qeydiyyata alındığı tibb müəssisəsini öz arzusu ilə qeydiyyata alındığı gündən etibarən azı 1 (bir) təqvim ili keçdikdən sonra dəyişə bilər. Şəxsin yaşadığı ərazi dəyişildiyi halda isə yeni ərazidəki tibb müəssisəsinə yuxarıda göstərilən vaxt məhdudiyyəti nəzərə alınmadan qeydiyyata alınmaq üçün müraciət olunmalıdır.

# Qarabağa zəfər yürüşü

27 Sentyabr, zəfər yürüşdü Qarabağa,
Cəngavərlər səpələndi sola-sağa.
Hər tərəfdən yağılara etdi təsir,
Təslimləri öldürmədi, aldı əsir.
Bir sivilə tuşlamadı silahını,
Uca tutdu Azərbaycan əsgərinin mərd adını.
Onları tək buraxmadı, arxada boş oturmadı,
Dəstək oldu ordumuza yurdumun qızı, qadını.

8 Noyabr, tarixə düşdü al qırmızı qanla,
Tariximiz dəyişdi qürur dolu dastanla.
Barıtın iyinə büründü cahan,
Raketlər altında yazıldı dastan.
Hər hərfini yazdı bir igid qanı,
Birləşmiş millətlər, vicdanınız hanı?!
Susub səslərini çxarmadılar,
Kənardan seyriçi kimi baxdılar.

Namərd düşmən dinc durmadı bircə an,
Yurdumuza göz dikibdi hər zaman.
Mənfur qonşu, bizim alın yazımız,
Gərək oyaq ola qan yaddaşımız.
Qanı Vətən torpağına qarışan,
Üçrəngli Bayrağı göyə qaldıran,
Türk gücünü erməniyə qandıran
Şəhidləri unutmasın xalqımız!




Dr. Mehri Seyidbəyli
05.12.2020

# ATU əməkdaşlarının məqalələri nüfuzlu elmi jurnallarda dərc olunub

**Hər il Azərbaycan Tibb Universitetinin əməkdaşlarının elmi məqalələri dünyanın nüfuzlu jurnallarında dərc olunur. Yola saldığımız 2020-ci ildə ATU-nun Histologiya, sitologiya və embriologiya kafedrasının müdiri, professor Eldar Qasımovun və ETM-in Elektron Mikroskopiya şöbəsinin böyük elmi işçisi, b.ü.f.d. Fuad Rzayevlə birlikdə elmi fəaliyyətlərinin nəticəsində Beynəlxalq indeksləmə və xülasələndirmə sistemlərinə (Web of Science; Scopus, PubMed və s.) daxil olan yüksək impakt faktorlu jurnallarda daha 7 elmi məqaləsi dərc edilib.**

Yerinə yetirilən tədqiqat işlərindən əldə olunan mühüm nəticələr dünyanın və Azərbaycanın elmi mərkəzlərinin əməkdaşlarından ibarət müvəqqəti elmi-tədqiqat qruplarının birgə işi hesabına əldə olunub. Bu qrupa Amerikanın Howard Universitetinin Farmakologiya kafedrası, Gürcüstanın İ.Beritaşvili adına Eksperimental Biotibb Mərkəzi və İlia Dövlət Universiteti, Hindistanın Bitki Biologiyası və Biotexnologiyası kolleci, Səudiyyə Ərəbistanının Səudiyyə Universitetinin Botanika və Mikrobiologiya kafedrası, Bakı Dövlət Universitetinin Nanoaraşdırmalar Mərkəzi və Biologiya fakültəsi, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar və Zoologiya İnstitutları, Naxçıvan Dövlət Universitetinin əməkdaşları daxil olub.




# Lifli qidaların qəbulu insanı tox saxlayır və atıq çəkidən azad olmağa kömək edir

**Sağlamlıq əslində sağlam və qatqıların olmadığı qidalardan başlayır. Sağlam qidalanmanın əsasını təşkil edən komponentlərdən biri lifli qidalardır.**

Aparılan tədqiqatlara əsasən gün ərzində hər kəsə 12-33 qram arasında lif qəbul etmək məsləhət görülür. Lifli məhsullarla qidalanma qan təzyiqini normaya salır, xolesterol səviyyəsini tənzimləyir, həmçinin mədə-bağırsaq sisteminin sağlamlığına müsbət təsir göstərir. Meyvə-tərəvəz və paxlalı bitkilərdə olan bəzi lif növləri orqanizmdə kalsium kimi əhəmiyyətli mineralların sorulmasına kömək edir.

Lifli qidaların bir xeyri də insanı tox tutmasıdır. Onun sayəsində həm də düzgün qaydada artıq kilolardan xilas olmaq mümkündür. Qəbul edilən hər 1000 kalori üçün 14 qram lif tövsiyə olunur. Bu növ qidalar maddələr mübadiləsini yaxşılaşdırır, eyni zamanda ürək xəstəliklərinin inkişafının qarşısını alır.Mütəxəssislər gündəlik qida rasionunda lifli qidalara yer ayırmağın vacibliyini qeyd edirlər.



Onların fikrincə, bu növ məhsullara üstünlük vermək sağlam həyat tərzi sürməyə səbəb olur.

## Allah rəhmət eləsin!

Farmakologiya, Tibbi və bioloji fizika, Tibbi biologiya və genetika kafedralarının əməkdaşları nevrologiya kafedrasının professoru

**Şərif Mahalovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları kafedranın dosenti Namiq Rəsulova qardaşı

**Niyazi Rəsulzadənin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai səhiyyə fakültəsinin dekanlığı, Qidalanma və kommunal gigiyena, İctimai sağlamlıq və səhiyyənin təşkili, Uşaq- yeniyetmələr və əmək sağlamlığı kafedralarının əməkdaşları İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayevə qayınatası

**Fazil Yusifovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları kafedranın assistenti Kəmalə Bədəlovaya qardaşı

**Müşfiq Bədəlovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin VI kurs, 14B qrup tələbəsi Hacıyev Mir Cəlal Taleh oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

---

İctimai səhiyyə fakültəsinin VI kurs, 626A qrup tələbəsi Tağızadə Aytac Elşən qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200